# HƏYAT BİLGİSİ

1

Dərslik



LAYİHƏ

LAYİHƏ



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

LAYİHƏ

LAYİHƏ

GÜLƏR MEHDİYEVA
AYGÜN HƏŞİMOVA

Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün

# Həyat bilgisi

fənni üzrə

## DƏRSLİK



Bu nəşrlə bağlı irad və təkliflərinizi
aspoligraf.ltd@gmail.com və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

ASPOLİQRAF

LAYİHƏ

## I. Təbiət və biz


1. Canlılar və cansızlar................... 6
2. Ətraf mühit......................................8
3. Bizi əhatə edən təbiət..............10
4. Heyvanlar ......................................12


## II. Təbiət hadisələri


5. Gecə və gündüz ......................... 16
6. Yaz.................................................18
7 Yay................................................ 20
8 Payız............................................. 22
9. Qış ................................................24


## III. Ətrafımızdakı insanlar


10. Siz və dostlarınız...................28
11. Ailə ............................................ 30
12. Kollektiv....................................32
13. Hüquqlarımız və vəzifələrimiz....................................34
14. Ünsiyyət....................................36


## IV. Vətənimiz


15. Azərbaycanın dövlət rəmzləri .........................40
16. Azərbaycan pulu .....................42
17. Bayramlarımız ..........................44
18. Dini bayramlar..........................46


## V. Sağlamlığımız


19. Təmizkar olaq ............................50
20. Yuxu və istirahət .....................52
21. Sağlam qida ...............................54
22. Düzgün qidalanaq.....................56


## IV. Təhlükəsizliyimiz


23. Evdə ..............................................60
24. Həyatdə və küçədə ..................62
25. Yolda və nəqliyyatda..............64
26. Təbii fövqəladə hadisələr....66
27. Qəza baş verərsə .....................68


Gəlin düşünək

Sizin bələdçiləriniz

Öyrəndik

LAYİHƏ



TƏBİƏT bizi əhatə edən ətraf aləmdir.

# Təbiət və biz





LAYİHƏ

# 1. CANLILAR VƏ CANSIZLAR

**Ətraf aləmdə gördüyünüz hər şey *canlı* və *cansızlara* ayrılır.**




LAYİHƏ




Cansızlardan fərqli olaraq canlılar tənəffüs edir, qidalanır, böyüyür. Ona görə də canlıların havaya, suya, qidaya və Günəşə ehtiyacı var.

LAYİHƏ

# 2. ƏTRAF MÜHİT



**Günün bir hissəsini evdə, bir hissəsini məktəbdə keçirirsiniz. Boş vaxtlarınızda parkda, həyətdə oynayırsınız.**







LAYİHƏ



Həyətin və küçənin təmizliyini necə qorumaq olar?



Ətrafı təmiz saxlamasaq, nə baş verər?



Bu paketlərdən hansı ətrafın çirklənməsinə səbəb olur? Seçiminizi izah edin.



Evimiz, həyətimiz, küçəmiz, sinif otağımız bizi əhatə edən mühitdir. Bu mühiti təmiz və səliqəli saxlamaq bizim borcumuzdur.

LAYİHƏ

# 3. Bizi əhatə edən təbiət



**Təbiətdə *dağlar, təpələr, çaylar, göllər* vardır.**




LAYİHƏ







**Tapmacaları cavablandırın**



**1.** Dağdan alçaq,
Düzdən yüksək,
Nədir deyin,
Tapın görək.

**2.** Dağdan gəlir,
Daşdan gəlir,
Nə yorulur,
Nə dincəlir.

**3.** Ayaqları yerdədir,
Başı buluda dəyir.



Dağ hündür, təpə alçaq olur. Çay axır, göl isə axmır.

LAYİHƏ

# 4. Heyvanlar

**Heyvanlar çox müxtəlifdir.**

Gördüyünüz heyvanlardan hansı otyeyən, hansı yırtıcıdır?

Şəkillərdəki heyvanların yaşadığı yerlər necə fərqlənir?





Heyvanlar özlərini təhlükələrdən necə qoruyurlar?

Ayı ətdən başqa armud və bal yeməyi də sevir.



Bunlar hansı heyvanlardır? Onlar harada yaşayırlar?

LAYİHƏ



İnsanlar bu heyvanları nə üçün bəsləyirlər?

İtin və uzunqulağın faydası nədir?

Qoyunun yununu niyə qırxırlar?







Məhsullar hansı ev heyvanlarından alınır?







Vəhşi heyvanlar meşələrdə, çöllərdə yaşayırlar. Ev heyvanlarını isə insanlar bəsləyib çoxaldırlar. Onların insanlara çox faydası var.

LAYİHƏ

# ÖZÜNÜ YOXLA №1

**1.** Canlıları qırmızı, cansızları sarı rənglə göstərin.



**2.** Uyğunluğu müəyyən edib xətlərlə birləşdirin.




**3.** Dağı və çayı seçib işarələyin.



**4.** Hansı heyvanın südündən yağ hazırlanır?



**5.** Otyeyən heyvanları yaşıl, ətyeyən heyvanları qırmızı rənglə işarələyin.



LAYİHƏ



Təbiətdə daim hadisələr baş verir.

# Təbiət hadisələri








LAYİHƏ

# 5. Gecə və gündüz



**Gün gecə və gündüzdən ibarətdir. Biz səhər yuxudan oyanır, axşam düşənə qədər çoxlu işlər görürük.**

Bu şəkildə hansı təbiət hadisəsi təsvir olunub?



Gecə ilə gündüz bir-birindən necə fərqlənir?



Gün hansı hissələrə bölünür?

Bizim ölkədə gecə olanda bəzi ölkələrdə səhər, bizdə səhər olanda bəzi ölkələrdə gecə olur.

LAYİHƏ



Şəkillər arasında hansı fərqlər var?






Siz gün ərzində hansı işləri görürsünüz?

səhər

günorta

axşam







Şəkillərdə təsvir olunanlar günün hansı vaxtlarına aiddir?

Biz səhər oyanır, məktəbdə dərs oxuyur, günorta evə qayıdıb nahar edirik. Axşam ailəmiz birlikdə şam edir.

LAYİHƏ

# 6. YAZ

**Yaz ilin dörd fəslindən biridir. Mart, aprel, may yaz aylarıdır.**



Yazda təbiətdə hansı dəyişikliklər baş verir?

Sizcə, bu dəyişikliklər nə üçün baş verir?

Yaz fəslinin payızla oxşar və fərqli cəhətlərini söyləyin.

Bağda uçar səhər-səhər,
Verər bizə yazdan xəbər.

LAYİHƏ




Yaz geyimlərini seçin.



Yaz fəslində hava istiləşməyə başlayır, ağaclar tumurcuqlayır. Tarlalarda əkin başlanır. Gündüzlər uzanır.

LAYİHƏ

# 7. YAY

Yazdan sonra yay fəsli gəlir. İyun, iyul, avqust yay aylarıdır.




LAYİHƏ






Yay ən isti fəsildir. Yayda məktəblilər tətilə çıxırlar. İnsanlar yayda qış üçün hazırlıq görürlər. Yayda gündüzlər uzun olur.

LAYİHƏ

# 8. PAYIZ

**Yaydan sonra payız fəsli gəlir. Sentyabr, oktyabr, noyabr payız aylarıdır.**




LAYİHƏ




Meyvələri rəngləyin.



Payızda havalar sərinləşir. Tez-tez yağışlar yağır. Bəzi quşlar isti ölkələrə köçür. Gündüzlər qısalır.

LAYİHƏ

# 9. QIŞ

**Payızı qış fəsli əvəz edir. Dekabr, yanvar, fevral qış aylarıdır.**

Şəklə əsasən qışın əlamətlərini söyləyin.

Bu fəsildə heyvanların yem tapması niyə çətinləşir?



İnsanlar qışda hansı geyimlərdən istifadə edirlər?

Mövsümə uyğun geyinmək nə üçün vacibdir?

LAYİHƏ



Qışda heyvanlar soyuqdan necə qorunurlar ?

**Bir çox heyvanlar yuvalarına çəkilib qışın çox hissəsini yatırlar.**

Tapmacaların cavabını tapıb şəklini çəkin.



İki kürküm var,
On qardaşa çatar.
Bunu kim tapar?

Burnu kökdür,
Gözü kömür,
Vedrədəndir papağı.
İsti sevmir,
Yayda gəlmir,
Qışda olur
Uşaqların qonağı.





Qış ilin ən soyuq fəslidir. Qışda heyvanların yem tapması çətinləşir. Qış fəslində gündüzlər qısa, gecələr uzun olur.

LAYİHƏ

# ÖZÜNÜ YOXLA №2

**1.** Şəkillərə uyğun vaxtları tapıb səhəri sarı, günortanı qırmızı, axşamı göy rənglə göstərin.





**2.** Təbiət hansı fəsildə canlanır?





**3.** Hansı geyimlər payız fəslinə uyğundur?





**4.** Bu meyvələrdən hansı yayda yetişmir?





**5.** Yazdan xəbər verən quşu seçin.





LAYİHƏ







Ətrafınızda sizə doğma və
yaxın olan insanlar var.

# ƏTRAFIMIZDAKI İNSANLAR



LAYİHƏ

# 10. SİZ VƏ DOSTLARINIZ

**Sizi ətrafınızdakı insanlarla müxtəlif münasibətlər bağlayır. Siz həm övlad, həm dost, həm də sinif yoldaşısınız.**




LAYİHƏ

Qız yarışda qalib olan rəfiqəsinə niyə belə baxır?



Onun münasibəti əslində necə olmalıdır?

Bu uşaqlar bir-biri ilə necə davranırlar? Onlar buna necə nail olublar?



Sizcə, dostluq etmək üçün insanda hansı keyfiyyətlər olmalıdır?

Yaxşı keyfiyyətləri göstərən sözləri seçin.

| | | |
|---|---|---|
| **düzlük** ○ | **xəbərçilik** ○ | **çalışqanlıq** ○ |
| **yalançılıq** ○ | **səmimilik** ○ | **paxıllıq** ○ |

Yaxşı insan yaxşı dostdur. Yaxşı insan mehriban, səmimi, çalışqan olur. Paxıllıq, xəbərçilik, yalançılıq pis keyfiyyətlərdir.

LAYİHƏ

# 11. Ailə

**Ata, ana, bacı, qardaş bir ailənin üzvləridir.**



Şəkildə kimləri görürsünüz?

Ailədə daha kimlər ola bilər?

Ailə üzvləri bir-birinin qayğısına necə qalırlar?



Valideynlərinizə hansı işlərdə kömək edirsiniz?

LAYİHƏ




Aşağıdakı tapmacalarda
söhbət hansı ailə
üzvlərindən gedir?

1. Doğulan gündən,
Qoymayır gözdən.
Dəcəl olsaq da,
İncimir bizdən.

2. Hamımızın böyüyüdür,
Saçı-saqqalı ağdır.
Nəvəsi ilə qürurlanır
Deyir "balam qoçaqdır!"



3. Hər gün bizimlə oynayar,
Axşam işdən gələndə.
Hamımızın üzü gülər
O, "Afərin!" deyəndə.

4. Anamızın anasıdır,
Qayğıkeş, mehribandır.
Ondan çox şey öyrənirik,
Bizə əziz insandır.

Ailə bir mənzildə yaşayan doğma insanların birliyidir. Ailə üzvləri hər işdə bir-birlərinə kömək etməlidirlər.

LAYİHƏ

# 12. KOLLEKTİV

**Kollektivdə insanlar işləri birlikdə görürlər.**



Şəkillərdə hansı kollektivləri görürsünüz?



Bu oyunu təklikdə oynamaq olarmı?



Çoxluqda oynanılan daha hansı oyunları bilirsiniz?

LAYİHƏ



Tapşırığı qrupda, yoxsa fərdi həll etmək asandır? Nə üçün?



Bu binanı təklikdə tez tikmək olar, yoxsa kollektiv şəkildə? Nə üçün?



Turpu çıxarmaqda babaya kömək edənləri seçib ardıcıl sıralayın.





"Turp" nağılını AİLƏ və KOLLEKTİV mövzuları ilə əlaqələndirin.

Kollektiv birlik deməkdir. Hər işi birlikdə görmək daha asandır. Güc birlikdədir.

LAYİHƏ

# 13. HÜQUQLARIMIZ VƏ VƏZİFƏLƏRİMİZ

**Hər bir uşağın hüquqları və vəzifələri vardır.**









LAYİHƏ



Bu uşaqlardan hansıları məktəb qaydalarına əməl etmir?

Düzgün olanların qarşısında +, düzgün olmayanların qarşısında – işarəsi qoyun.



- ◯ Dərslikləri səliqəli, sinif otağını təmiz saxlayırıq;
- ◯ Dərsə istədiyimiz vaxtda gəlirik;
- ◯ Məktəbin avadanlıqlarından düzgün istifadə edirik;
- ◯ Məktəbə istədiyimiz geyimdə gəlirik.



Uşaqların təhsil almaq, sağlam olmaq, istirahət etmək hüquqları vardır. Onların vəzifəsi isə məktəb qaydalarına əməl etməkdir.

LAYİHƏ

# 14. ÜNSİYYƏT

**İnsanlar salamlaşır, söhbət edirlər. Bu, *ünsiyyətdir*.**




Kimdənsə kömək istəyəndə ona necə müraciət etmək lazımdır?

Bu cür sözlərə ümumi halda nə deyirlər?

LAYİHƏ



Sizcə, bu uşaqlar nə söyləyirlər? Sözləri yazın.





Daha hansı nitq etiketlərindən istifadə edilir?

İnsanlar nə üçün nitq etiketlərindən istifadə edirlər?

Ünsiyyət zamanı nitq etiketlətindən istifadə etmək lazımdır. Bu, insanlar arasında xoş münasibətlər yaradır.

LAYİHƏ

# ÖZÜNÜ YOXLA №3

**1.** Bunlardan hansı idman kollektividir?





**2.** Hansı şəkildə ailə təsvir olunub?





**3.** Sağlamlığımızı kim qoruyur?





**4.** Hansı şəkil məktəb qaydalarına uyğun deyil?





**5.** Şəkillərdən hansında uşaq nəzakətli davranır?





LAYİHƏ





**Biz azərbaycanlıyıq. Dövlətimizin adı Azərbaycan Respublikasıdır.**

# VƏTƏNİMİZ



LAYİHƏ

# 15. AZƏRBAYCANIN DÖVLƏT RƏMZLƏRİ

**Bayraq, himn, gerb dövlət rəmzləridir. Ölkələr hər yerdə bu rəmzlərlə tanınır.**




Azərbaycan bayrağında nə təsvir olunub?

Gerbimizdə hansı təsvirlər var?

Bu, Azərbaycanın xəritəsidir. Xəritədə gördüyünüz hansı dənizdir?




LAYİHƏ



Dövlət himnimiz nə zaman oxunur?

Dövlət bayrağı haralarda asılır?

Dövlət rəmzlərinə hörmət etmək nə üçün hamımızın borcu sayılır?

Rənglərin köməyi ilə oxların göstərdiyi istiqamətdə oxuyun.





Bayrağımızı ən uca yerlərdən asır, himnimiz oxunarkən ayağa qalxıb düz dayanırıq. Dövlət rəmzlərinə hörmət etmək hamımızın borcudur.

LAYİHƏ

# 16. AZƏRBAYCAN PULU



**Ölkəmizdə *kağız və metal pullar*dan istifadə edilir.**

Şəkildə gördüyünüz pulların fərqini izah edin.



Azərbaycanın pulu necə adlanır?

Hansı şəkil Azərbaycan pullarının hamısında var? Sizcə, bu, nə üçün belədir?

Pul insanlara nə üçün lazımdır?



Şəkildə gördüyünüz bu oğlan nə edir?






Dəmirdəndir,
Nə əli var,
Nə də qolu.
Kartı görər,
Pulu verər.

LAYİHƏ

Ev üçün bazarlıq edərkən ilk növbədə nələri almaq lazımdır?





Pulu lazımsız şeylərə xərcləmək nəyə səbəb ola bilər?



Pulları dəyərinin artmasına görə nömrələyin.





Pulumuzun adı Azərbaycan manatıdır. Pulla ərzaq, geyim alır, işlətdiyimiz qazın, suyun, işığın haqqını ödəyirik. Pulu lazımsız şeylərə xərcləmək olmaz.

LAYİHƏ

# 17. BAYRAMLARIMIZ

**Hər ölkənin öz bayramları vardır. Azərbaycanda da bayram günləri qeyd olunur.**



Şəkillərdə hansı bayramlar qeyd edilir?

Bayramlar təqvimdəki başqa günlərdən necə fərqlənir?

Novruz bayramı başqa bayramlardan hansı xüsusiyyətləri ilə seçilir?





Biz yeni illə eyni vaxtla hansı bayramı qeyd edirik?

8 Mart günü kimləri təbrik edirsiniz?



LAYİHƏ




Mayın 9-da
hansı bayram qeyd edilir?
9 May günü ən çox kimləri
təbrik edirlər?







Bu bayramlar
haqqında
nə bilirsiniz?




Xoşladığınız
bayrama aid
açıqca hazırlayın.





Bayram günlərində idarələrdə iş, məktəblərdə dərs olmur. Bayramlarda insanlar sevinir, bir-birini təbrik edirlər.

LAYİHƏ

# 18. DİNİ BAYRAMLAR

**Azərbaycan bayrağındakı yaşıl rəng islam dinini ifadə edir. İslam dininin müqəddəs bayramları dövlətimiz tərəfindən qeyd edilir.**




LAYİHƏ





İslam dininin müqəddəs kitabı necə adlanır?



Başqa dinlərin da müqəddəs kitabları var. Onlardan hansılarını tanıyırsınız?

İslam dininə aid olan işarəni seçib altındakı çərçivəni yaşıl rəngləyin.









İslam dininin müqəddəs bayramlarında insanlar xeyirxah işlər görür, imkansızlara kömək edirlər. İslam dini insanları xeyirxah olmağa çağırır.

LAYİHƏ

# ÖZÜNÜ YOXLA №4

**1.** Azərbaycanın bayrağı hansıdır?





**2.** Azərbaycanın gerbində bu şəkillərdən hansı yoxdur?





**3.** Himnimiz oxunarkən necə dayanmaq lazımdır?





**4.** Azərbaycan pulu üzərində bu şəkillərdən hansı var?





**5.** Hansı şəkil Novruz bayramına aiddir?






LAYİHƏ

   

Sağlamlığını qorumayanda insan tez-tez xəstələnir.

# SAĞLAMLIĞIMIZ



LAYİHƏ

# 19. TƏMİZKAR OLAQ

**Təmizlik sağlamlığın vacib şərtlərindən biridir.**



Gün ərzində hansı vaxtlarda əllər yuyulmalıdır?



Dişlərimizi niyə hər gün fırçalayırıq?



Əlləri sabunla yumaq insanı xəstələnməkdən necə qoruyur?



Dırnaqları kəsməyin sağlamlığa faydası nədir?

LAYİHƏ



## TƏMİZLİK

Səhər durunca,
Əlimdə fırça
Sildim dişimi,
Bildim işimi.
İnanmırsan, bax,
Dişim ağappaq.
Üstüm tərtəmiz:
Bax, beləyik biz!

***Abdulla Şaiq***





Meyvə-tərəvəzi yeməkdən qabaq niyə yuyurlar?







Təmizlik əşyalarını seçin.





Sağlamlığı qorumaq üçün təmizkar olmaq lazımdır.

LAYİHƏ

# 20. YUXU VƏ İSTİRAHƏT



**Çox hərəkət etmək, yuxu rejimi və istirahət də sağlamlığı qorumağın əsas şərtlərindəndir.**

İdman sağlamlığa necə kömək edir?





Sizcə, təmiz havada olmağın sağlamlığa faydası nədir?



LAYİHƏ












1. Yeddi günə bərabər vaxt ölçüsü;
2. Müharibədə ələ keçən düşmən döyüşçüsü;
3. Taxtanı yonmaq üçün alət;
4. Əlləri soyuqdan qoruyan geyim;
5. Avtomobillərin və insanların hərəkəti üçün yol;
6. Kolbasa hazırlamaq üçün əsas ərzaq;
7. Futbol oynamaq üçün idman əşyası.



Sağlamlığı qorumaq üçün yuxu rejiminə əməl etmək vacibdir. Təmiz havada gəzmək, kompüter, planşet və telefonla az vaxt keçirmək lazımdır.

LAYİHƏ

# 21. SAĞLAM QİDA



**Qəbul etdiyi qidalar da insanın sağlam olmasına kömək edir.**



Niyə hər gün meyvə yemək məsləhət görülür?





Tərəvəzin sağlamlığa faydası nədir?

Şəkildə gördüyünüz tərəvəzləri və onlardan hazırlanan yeməkləri sadalayın.

LAYİHƏ

Ət məhsullarının insana nə xeyri var?







Süd məhsullarından çox istifadə edirik. Bu qidanın bizə faydası nədir?



Krossvordları həll edib, göz və sümüklər üçün faydalı olan qidaların adlarını tapın.









Meyvə-tərəvəz, ət və süd məhsullarının tərkibində sağlamlıq üçün lazım olan maddələr var. Bu qidaları qəbul etmək sağlamlığınız üçün vacibdir.

LAYİHƏ

# 22. DÜZGÜN QİDALANAQ



**Gün ərzində düzgün qidalanmaq sağlamlığı qorumağın vacib şərtidir.**



Səhər yeməyi süfrəsində hansı qidalar ola bilər?





Sizcə, meyvə və meyvə şirəsinin qəbulu günün hansı vaxtlarında daha faydalıdır?



LAYİHƏ

Uşaqların həvəslə gözlədiyi bu yeməklər günün hansı vaxtında yeyilir?





Hansı vaxtın yeməyində əvvəlcə şorba yeyilir?



Şam yeməyində nə üçün yüngül yeməklər məsləhət görülür?



Bu qidalardan hansıları şam yeməyi üçündür?



Biz gün ərzində bir neçə dəfə qida qəbul edirik. Nəyi, nə zaman, nə qədər və necə yeməyi bilmək həm sağlamlıq, həm də qidalanma mədəniyyətidir.

LAYİHƏ

# ÖZÜNÜ YOXLA №5

1. Bu uşaqlardan hansı səhvə yol verir? Onun səhvi nədir? Fikirlərinizi yazın.



2. Bu saatlardan hansı uşağın istirahət vaxtını göstərir?







3. Hansı tərəvəzlər bişirilməmiş yeyilir?



4. Boş xananın yerinə hansı şəkil olmalıdır? Həmin məhsulun adını boş xanaya yazın.














5. Sağlam olmaq üçün hansı qidaları daha çox qəbul etməliyik?







LAYİHƏ







Hər bir insan özünü təhlükələrdən
qorunmağı bacarmalıdır.

# Təhlükəsizliyimiz




LAYİHƏ

# 23. EVDƏ

**Hər bir evdə müxtəlif cihaz və alətlər var. Bu əşyalar insanların həyatını yüngülləşdirir.**




LAYİHƏ


















Uşaqlar evdəki cihazlardan və alətlərdən böyüklərin nəzarəti altında istifadə etməlidirlər. Kibritlə və dərmanlarla oynamaq olmaz.

LAYİHƏ

# 24. Həyətdə və küçədə

**Küçənizdə hərəkət edir, həyətinizdə oynayırsınız.**




LAYİHƏ



Evinizin ətrafında nələr var? Küçənizi təsvir edin.

Küçənizi yaxşı tanımaq sizə nə üçün lazımdır?



Tanımadığınız insanlarla danışmaq nə üçün təhlükəli ola bilər?



Sahibsiz qutu və bağlamalara niyə toxunmaq olmaz?





Bu uşaqlar həyatları üçün təhlükə yaradırlar. Deyə bilərsinizmi, bu hansı təhlükələrdir?





Həyətdən uzağa getmək, yad insanlarla ünsiyyətə girmək olmaz. Naməlum əşyalara, heyvanlara, göbələklərə toxunmaq həyat üçün təhlükəli ola bilər.

LAYİHƏ

# 25. YOLDA VƏ NƏQLİYYATDA



**İnsanlar bir yerdən başqa yerə getmək üçün *nəqliyyatdan* istifadə edirlər. Avtomobil ən çox istifadə olunan nəqliyyat vasitəsidir.**



Bu qadın hara enir? Nə üçün?

Başqa hansı nəqliyyat vasitələrini tanıyırsınız?

Bu ağ zolaqlar avtomobillər üçündür, yoxsa piyadalar üçün?

Şəkildəki işıqforlardan hansı piyadalar üçündür?

İşıqfordakı rənglərin mənasını necə izah edə bilərsiniz?



Üç gözü var,
Üç sözü:
Biri deyir – Dayan!
Biri deyir – Hazırlaş!
Biri deyir – Keç!

LAYİHƏ

Bu uşaqlar nəqliyyatda davranış qaydalarına necə əməl edirlər?



İşarələrin mənasını necə izah edə bilərsiniz?



Ətrafdakı insanlar bu oğlana niyə narazılıqla baxırlar?

Yol hərəkəti qaydalarına aid nişanları seçin.



Yol hərəkəti qaydaları və yol nişanları insanların təhlükəsizliyi üçündür. Bu qaydalara əməl etmək vacibdir.

LAYİHƏ

# 26. TƏBİİ FÖVQƏLADƏ HADİSƏLƏR

**Təbiət hadisələri bəzən çox güclü, dağıdıcı olur. Bu cür hadisələrə *təbii fövqəladə hadisələr* deyirlər.**




LAYİHƏ

Zəlzələ zamanı nə baş verir?



Sizcə, zəlzələ baş verməsi insanlardan asılıdırmı?

**Zəlzələ zamanı eyvana çıxmaq və liftə minmək OLMAZ.**

Aşağıdakı şəkillərdə ***subasma, sürüşmə, güclü külək*** göstərilmişdir. Hər şəklin altından hadisənin adını yazın.







Zəlzələ, subasma , sürüşmə, güclü külək təbii fövqəladə hadisələrdir. Belə hadisələr insanlara və ətrafa ziyan vurur.

LAYİHƏ

# 27. QƏZA BAŞ VERƏRSƏ

**Bəzən gözlənilməz qəzalar baş verir. Bu zaman xilasedicilər, yanğınsöndürənlər köməyə gəlirlər.**




LAYİHƏ




Çərçivələrin içərisinə uyğun nömrələri yazın.



**101** - **Yanğın-söndürmə xidməti**

**102** - **Polis**

**103** - **Təcili yardım**

**112** - **Fövqəladə hallar**









Qəza baş verərsə, xilasedicilər gələnə qədər özünümühafizə qaydalarına əməl etmək və uyğun nömrələrə zəng vurub xəbər vermək lazımdır.

LAYİHƏ

# ÖZÜNÜ YOXLA №6

**1.** Bu uşaqların səhvi nədir? Fikrinizi qeyd edin.





**2.** Hansı uşaqlar həyətdə oyun zamanı düzgün davranır?








**3.** İşıqforun hansı işarəsi "dayan!" əmrini verir?







**3.** Hansı şəkil nəqliyyatda davranış qaydalarına uyğundur?







**4.** Zəlzələ baş verərkən nə etmək lazımdır?







LAYİHƏ

# İstifadə olunmuş ədəbiyyat




## Azərbaycan dilində

7. Hər suala bir cavab. Ensiklopedik toplu. I cild. Azərbaycan Tərcümə Mərkəzi, Bakı, 2016.
“Səsli nağıllar” www.youtube.com
“Uşaq kanalları” www.youtube.com
www.ensiklopediya.gov.az
. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2003.
2. Qədirov Ə.Ə.Yaş psixologiyası. Bakı, 2003.
5. Məmmədov İ.M., Şahverdiyeva S.Z. Biliklərin əldə edilməsinin asanlaşdırılması təlim prosesinin humanistləşdirilməsinə nail olmaq yollarından biri kimi. “Psixologiya” elmi-praktik jurnal. 2017 №3.
8. Aynur Bünyatova, Sevinc Əmirova. Yeni, sağlam təhsil texnologiyalarının kiçik məktəblilərin idrak və emosional-iradi proseslərinə təsiri. “Psixologiya” elmi-praktik jurnal. 2017 №3.
9. Fəal interaktiv təlim. Müəllim üçün vəsait. Z.A.Veysova. Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF).
10. Bibixanım İbadova. Kurikulum üzrə mütəxəssisin fikirləri. Kurikulum jurnalı, 2013 №2
11.“Dərslik necə olmalıdır?”. Bakı, 2003.
12. “Həyati bacarıqlara əsaslanan təhsil”. Bakı, 2006.
13. Təhsil lüğəti. Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi. Bakı, 2011.
14. Suna Öztürk, Fevzi Elbistan.“İlköğretim” İstanbul, 2007.

## Rus dilində

Как рассказать ребёнку о родине? https://mir-tema.ru/vospitanie/17555-kak-rasskazat-rebenku-o-rodine
Уровни нравственного развития личности (по Колбергу) https://studfile.net/preview/3601124/page:15/
Современные концепции содержания нравственного воспитания школьников США | BookOnLime https://bookonlime.ru/lecture/22-sovremennye-koncepcii-soderzhaniya-nravstvennogo-vospitaniya-shkolnikov-ssha
Нравственное воспитание https://burmak2.edu.yar.ru/docs/seminari/nravstvennoe_vospitanie.html
Учебник: "Время, времена года" https://skazkiwsem.ru/Obuchalki/Vremya-Vremena-goda/index.html#p=4
6 Царство животных. Детская энсиклопедия. Москва, Оникс 21 век, 2000.
3. Шаповаленко И.В. Возрастная психология. М., 2005.
4. Франсуа-Мари Жерар Ксавье Рожье Разработка и анализ школьных учебников. Издательство АВ ОВО 1998.

## İngilis dilində

Seasons of the year https://www.lingokids.com/english-for-kids/seasons-of-the-year
Seasons explained | Seasons for KS1 children | Spring, summer, winter, autumn primary-school learning | TheSchoolRun https://www.theschoolrun.com/what-are-seasons


LAYİHƏ

BURAXILIŞ MƏLUMATI

**HƏYAT BİLGİSİ 1**

*Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün*
*Həyat bilgisi fənni üzrə*
**DƏRSLİK**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | ***Gülər Mehdiyeva*** |
| | ***Aygün Həşimova*** |
| Redaktoru | ________________ |
| Bədii və texniki redaktoru | ***Abdulla Ələkbərov*** |
| Dizayneri | ***Firuzə İbrahimova*** |
| Rəssamı | ***Məzahir Hüseyn*** |
| Korrektoru | ***Mətanət Kərimova*** |

Dərsliyə müvafiq parametrlər üzrə rəy verən təşkilatlar:

________________________________________

________________________________________

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi (qrif nömrəsi: 2020-____)**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və
yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini
çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 7,6. Fiziki çap vərəqi 4,5.
Formatı 70x100 $^{1}/_{16}$. Kəsimdən sonrakı ölçüsü: 195x275 mm.
Səhifə sayı 72. Şriftin adı və ölçüsü: jurnal qarnituru, 14-16 pt.
Ofset kağızı. Ofset çapı. Sifariş .
Tiraj . Pulsuz. Bakı—2020.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:____**

Nəşri hazırlayan:
**“Aspoliqraf LTD” MMC**
Bakı, AZ 1052, F.Xoyski küç., 151

Çap məhsulunu istehsal edən:
**“Təhsil Nəşriyyat-Poliqrafiya” MMC**
Bakı, AZ 1052, F.Xoyski küç., 121a (149)

LAYİHƏ

PULSUZ



LAYİHƏ